# Milli Kitabxanada yeni sərgilər




Milli Kitabxanada "15 sentyabr - Bilik Günü" adlı virtual və ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.

Kitabxanadan bildirilib ki, virtual sərgidə "Azərbaycanda təhsilin inkişafı və təhsil siyasəti", "Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında rolu", "Milli təhsilin uğurları və hədəfləri", "Süni intellekt təhsil prosesində" və digər mövzu ilə əlaqədar dövri mətbuat səhifələrində dərc olunan məqalələr, fotolar və kitablar təqdim olunur.

Ənənəvi sərgidə isə Azərbaycanda təhsil tarixi, elm və təhsil siyasəti, Ulu Öndər Heydər Əliyev və Azərbaycanda təhsilin inkişafı, Milli təhsil strategiyası, Heydər Əliyev Fondunun ölkəmizin təhsil sahəsində fəaliyyəti, təhsilin inkişafına göstərilən diqqət və qayğı, görkəmli pedaqoqlar və s. haqqında Azərbaycan və xarici dillərdə ədəbiyyatlar nümayiş olunur.

Milli Kitabxanadakı digər bir sərgi görkəmli tərcüməçi, dilçi-alim İsmixan Rəhimovun anadan olmasının 100 illiyi ilə əlaqədardır.

"Dilçi-alim İsmixan Rəhimov" adlı kitab sərgisində alimin müəllifi olduğu dərsliklər, dərs vəsaitləri, lüğətlər, elmi məqalələri, həyatı haqqında Azərbaycan və xarici dillərdə ədəbiyyatlar, dövri mətbuatda çap olunan məqalələr nümayiş olunur.